AZƏRBAYCAN RESPUBLIKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

QƏRAR

№ KQ-2/22

Bakı şəhəri **"21" yanvar 2022-ci il**

"Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndinə əsasən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası[1]

qərara alır:

1. "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

Kollegiyanın sədri,
rəqəmsal inkişaf və nəqliyyat
naziri **Rəşad Nəbiyev**

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2022-ci il "21" yanvar tarixli KQ-2/22 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası

1. Ümumi müddəalar

1.1. "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası" (bundan sonra – Qayda) "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarının 2-ci hissəsinə və həmin Qərarla təsdiq edilmiş "Koronavirus (COVİD-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın (bundan sonra – Müvəqqəti qaydalar) 2.1.4-1-ci yarımbəndinə uyğun olaraq koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması qaydalarını müəyyən edir.

1.2. Bu Qaydanın müddəaları Azərbaycan Respublikasına uçuşları həyata keçirən xarici dövlətlərə və Azərbaycan Respublikasına mənsub olan aviadaşıyıcıların, Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələri (bundan sonra – DSBM) olan beynəlxalq hava limanlarında sərhəd nəzarətini həyata keçirən sərhəd nəzarəti orqanının, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (bundan sonra – TƏBİB), habelə Azərbaycan Respublikasının ərazisində olan beynəlxalq hava limanları istismarçılarının fəaliyyətinə şamil olunur.

1.3. Bu Qaydanın məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

1.3.1. aviadaşıyıcı – daşıma müqaviləsi əsasında haqq müqabilində hava məkanından istifadə etməklə sərnişin və yük daşımalarını yerinə yetirən, mülkiyyət, icarə və ya istifadə hüququ ilə hava gəmilərinə malik olan hüquqi şəxs və ya fərdi sahibkar;

1.3.2. beynəlxalq hava limanı – gömrük, miqrasiya, ictimai sağlamlıq, heyvan və bitki karantini və digər oxşar prosedurlar ilə əlaqədar rəsmi tədbirlər görülən, o cümlədən beynəlxalq hava daşımalarını həyata keçirən hava gəmilərinin qəbulu və yola salınması üçün müəyyən edilən hava limanı;

1.3.3. beynəlxalq hava limanının istismarçısı – bir və ya bir neçə beynəlxalq hava limanını idarə edən hüquqi şəxs və ya fərdi sahibkar.

1.4. Bu Qaydada istifadə olunan digər anlayışlar "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi və digər normativ hüquqi aktlar, habelə Azərbaycan Respublikasının mülki aviasiya sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə müəyyən edilmiş mənaları ifadə edir.

2.**Yoxlama proseduru**

2.1. Azərbaycan Respublikasının ərazisinə uçuşlar həyata keçirən bütün aviadaşıyıcılar tərəfindən gətirilmiş bu Qaydanın 2.2-ci bəndində qeyd edilən sərnişinlərin (bundan sonra – sərnişinlər) sənədlərinin (Müvəqqəti qaydaların 2.1.3.1-ci və 2.1.3.2-ci yarımbəndlərində qeyd edilən) mövcud olması, eləcə də həmin sənədlərin Müvəqqəti qaydaların 2.1.3-cü yarımbəndinin tələblərinə uyğunluğu beynəlxalq hava limanında DSBM-dən keçərkən sərhəd nəzarəti orqanı tərəfindən yoxlanılır.

2.2. Azərbaycan Respublikasının ərazisində yerləşən beynəlxalq hava limanına hava gəmiləri ilə sərnişinlərin gətirilməsi zamanı aviadaşıyıcıların daşımanı aşağıdakı şərtlərlə həyata keçirməsi sərhəd nəzarəti orqanı tərəfindən yoxlanılır:

2.2.1. sərnişin əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdirsə:

1. 18 (on səkkiz) yaşından yuxarı sərnişinlərə münasibətdə – yalnız COVID-19 pasportunun (COVID-19-a qarşı tam peyvənd olunmasını və ya COVID-19-dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənədin) ~~və uçuşdan əvvəl 72 (yetmiş iki) saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənədin~~ mövcudluğu;[2]

2. yaxın qohumu Azərbaycan Respublikasının vətəndaşı (valideynlərindən biri, bacısı, qardaşı, əri, arvadı və ya övladı, babası, nənəsi və nəvəsi) olan sərnişinlərə, o cümlədən belə sərnişinlərin ailə üzvlərinə (əri, arvadı, valideynləri, uşaqları) münasibətdə – qohumluq dərəcəsini təsdiq edən ~~sənəd və uçuşdan əvvəl 72 (yetmiş iki) saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən~~ sənədin mövcudluğu;[3]

~~3. 18 (on səkkiz) yaşınadək (1 (bir) yaşınadək uşaqlar istisna olmaqla) sərnişinlərə münasibətdə – yalnız uçuşdan əvvəl 72 (yetmiş iki) saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənədin mövcudluğu;~~[4]

2.2.2. Azərbaycan Respublikasının vətəndaşına, həmçinin diplomatik pasport sahibinə, Azərbaycan Respublikasında xarici ölkələrin diplomatik nümayəndəliklərinin və konsulluqlarının rəhbərinə, əməkdaşına və onların ailə üzvünə, Azərbaycan Respublikasında iş icazəsi olan əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə, Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq icazəsi olan əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə və onların ailə üzvlərinə (arvadı (əri), himayəsində olan valideynləri və 18 (on səkkiz) yaşına çatmamış uşaqları, habelə 18 (on səkkiz) yaşına çatmış sağlamlıq imkanları məhdud uşaqları), habelə ölkəyə girişinə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən xüsusi icazə verilmiş sərnişinlərə münasibətdə – müvafiq təsdiqedici *sənədlərin* mövcudluğu.[5]

~~3. Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə görülən tədbirlər~~[6]

~~3.1. Hava yolu ilə Azərbaycan Respublikasının ərazisində yerləşən beynəlxalq hava limanına gəlmiş Azərbaycan Respublikası vətəndaşının COVID-19-a dair PCR testinin nəticəsini təsdiq edən sənəddə testin nəticəsinin pozitiv olması ilə bağlı qeyd aşkar olunduqda və ya PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd olmadıqda~~

~~həmin şəxs iki həftə müddətinə aviadaşıyıcının hesabına TƏBİB tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 1 may tarixli 161 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə və təcrid olunma Qaydaları"na uyğun olaraq karantinə alınır.~~

~~3.2. Bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş halda sərhəd nəzarəti orqanı tərəfindən barəsində akt tərtib edilən şəxsin, TƏBİB-in əməkdaşının və aviadaşıyıcının nümayəndəsinin də imzaladığı bu Qaydanın 1 nömrəli Əlavəsi ilə müəyyən edilmiş formada 4 (dörd) nüsxədə karantinə alınma haqqında akt tərtib edilir. Karantinə alınma haqqında aktın bir nüsxəsi sərhəd nəzarəti orqanında saxlanılır, digər nüsxələri isə barəsində akt tərtib edilən şəxsə, TƏBİB-in əməkdaşına və aviadaşıyıcının nümayəndəsinə təhvil verilir.~~

~~3.3. Aviadaşıyıcının nümayəndəsi və ya barəsində karantinə alınma haqqında akt tərtib edilən şəxs hər hansı səbəbdən həmin aktı imzalamaqdan imtina etdikdə sərhəd nəzarəti orqanı tərəfindən aktda bu barədə əlavə qeydlər aparılır.~~

4. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə görülən tədbirlər

4.1. Hava yolu ilə Azərbaycan Respublikasının ərazisində yerləşən beynəlxalq hava limanına gəlmiş əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin *Müvəqqəti qaydaların 2.1.3.1-ci və 2.1.3.2-ci yarımbəndlərində qeyd edilən* təsdiqedici sənədləri olmadıqda həmin şəxs ölkə ərazisinə buraxılmır. Qeyd edilən şəxs aviadaşıyıcının vəsaiti hesabına həmin reyslə gəldiyi təyinat məntəqəsinə geri qaytarılır.[7]

4.2. Bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş halda sərhəd nəzarəti orqanı tərəfindən barəsində akt tərtib edilən şəxsin və aviadaşıyıcının nümayəndəsinin də imzaladığı bu Qaydanın 2 nömrəli Əlavəsi ilə müəyyən edilmiş formada 3 (üç) nüsxədə şəxsin ölkəyə buraxılmaması haqqında akt tərtib edilir. Şəxsin ölkəyə buraxılmaması haqqında aktın bir nüsxəsi sərhəd nəzarəti orqanında saxlanılır, digər nüsxələri isə barəsində akt tərtib edilmiş şəxsə və aviadaşıyıcının nümayəndəsinə təhvil verilir.

4.3. Barəsində şəxsin ölkəyə buraxılmaması haqqında akt tərtib edilən şəxs və ya aviadaşıyıcının nümayəndəsi hər hansı səbəbdən həmin aktı imzalamaqdan imtina etdikdə sərhəd nəzarəti orqanı tərəfindən aktda bu barədə əlavə qeydlər aparılır.

4.4. Şəxsin ölkəyə buraxılmaması haqqında akt hava yolu ilə Azərbaycan Respublikasının ərazisində yerləşən beynəlxalq hava limanına gəlmiş əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin aviadaşıyıcı tərəfindən geri qaytarılması üçün əsas təşkil edir.

5. **Məlumatların ötürülməsinə dair tələblər**

5.1. Sərhəd nəzarəti orqanının beynəlxalq hava limanında olan əməkdaşları sərnişinlərin Müvəqqəti qaydaların 2.1.3.1-ci və 2.1.3.2-ci yarımbəndlərində qeyd edilən sənədlərinin mövcud olmadığını, eləcə də həmin sənədlərin Müvəqqəti qaydaların 2.1.3-cü yarımbəndinin tələblərinə uyğun olmadığını müəyyən etdikdə, həmin gün bu

Qaydanın 5.2-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan sənədlər bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulan Komissiyaya təqdim edilir.

5.2. Komissiyaya təqdim edilən sənədlər aşağıdakılardır:

5.2.1. barəsində şəxsin ölkəyə buraxılmaması haqqında akt tərtib edilmiş əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin sərhədkeçmə sənədinin surəti;[8]

5.2.2. ~~tərtib edilmiş karantinə alınma haqqında və ya~~ şəxsin ölkəyə buraxılmaması haqqında aktın (o cümlədən olduğu halda həmin akta qoşma şəklində əlavə edilmiş sənədlərin) surəti.[9]

5.3. Bu Qaydanın 5.2-ci bəndində qeyd olunan sənədlərə bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulan halları təsdiq edən sənədlərin surətləri əlavə olunur.

6. Müvəqqəti dayandırılmanın təmini

6.1. Həyata keçirdiyi hər bir reysdə Müvəqqəti qaydaların 2.1.3.1-ci və 2.1.3.2-ci yarımbəndlərində qeyd edilən sənədləri mövcud olmayan, eləcə də sənədləri Müvəqqəti qaydaların 2.1.3-cü yarımbəndinin tələblərinə cavab verməyən sərnişinlərinin sayı 3 (üç) və daha çox olan və ya ardıcıl olaraq həyata keçirdiyi 3 (üç) reysin hər birində bu cür sərnişinləri olan aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat *Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs (bundan sonra – Agentlik)* tərəfindən təmin edilir.[10]

6.2. Müvəqqəti dayandırılma ilə bağlı qərarın qəbul edilməsi üçün sənədlərin hazırlanması məqsədi ilə *Agentliyin İdarə Heyətinin sədri və ya sədrin səlahiyyətlərini* icra edən şəxs tərəfindən 3 (üç) daimi üzvdən ibarət Komissiya təşkil edilir. Komissiyanın fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi məqsədilə hər hansı səbəbdən Komissiyanın işində iştirak edə bilməyən daimi üzvü əvəz edəcək 3 (üç) ehtiyat üzv təyin edilir.[11]

6.3. Komissiya fəaliyyətini gündəlik əsasla həyata keçirir və ona təqdim olunan bu Qaydanın 5.2-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan sənədləri qeydiyyata alır.

6.4. Bu Qaydanın 6.1-ci bəndində qeyd olunan hallar təqdim olunmuş sənədlərlə təsdiq edildikdə, Komissiya bu barədə sənədləri uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması məqsədi ilə *Agentliyin İdarə Heyətinin sədrinə və ya sədrin səlahiyyətlərini* icra edən şəxsə təqdim edir. Təqdim edilən sənədlərdə hər hansı məsələ ilə razılaşmayan komissiya üzvü bununla bağlı özünün xüsusi rəyini *Agentliyin İdarə Heyətinin sədrinə və ya sədrin səlahiyyətlərini* icra edən şəxsə təqdim edə bilər.[12]

6.5. *Agentliyin İdarə Heyətinin sədri və ya sədrin səlahiyyətlərini* icra edən şəxs həmin gün Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması haqqında qərar qəbul edir.

6.6. Müvəqqəti dayandırılma müntəzəm və çarter uçuşlarını həyata keçirən aviadaşıyıcılar barəsində onların uçuş planı nəzərə alınmaqla, bu Qaydanın 6.1-ci bəndində qeyd edilən hallara ilk dəfə yol verildikdə 7 (yeddi) gün, növbəti dəfələrdə yol verildikdə isə 14 (on dörd) gün müddətində müəyyən edilir.

6.7. Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması haqqında qərarda aşağıdakı məlumatlar əks olunur:

6.7.1. bu Qaydanın 6.1-ci bəndində qeyd edilən hallara yol vermiş aviadaşıyıcının - hüquqi şəxsdirsə adı, fiziki şəxsdirsə soyadı, adı (olduğu halda digər adları);

6.7.2. bu Qaydanın 6.1-ci bəndində qeyd edilən hallar və həmin hallar qeydə alınmış reysin nömrəsi;

6.7.3. tətbiq edilən müvəqqəti dayandırılmanın qüvvədə olduğu müddət, o cümlədən müvəqqəti dayandırılmanın başlama və bitmə tarix və saatları;

6.7.4. müvəqqəti dayandırılmanın tətbiq edildiyi uçuş istiqaməti və təyinat məntəqələri barəsində məlumat.

6.8. Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması haqqında qərar qəbul edildikdən sonra həmin gün *Agentlik* tərəfindən aidiyyəti üzrə aviadaşıyıcılara, qərarın qəbul edilməsi barədə məlumat isə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, aviadaşıyıcının mənsub olduğu ölkənin mülki aviasiya sahəsində səlahiyyətli orqanına (qurumuna) və Azərbaycan Respublikasında fəaliyyət göstərən beynəlxalq hava limanları istismarçılarına göndərilir.[13]

7. Məlumatlandırma

7.1. Müvəqqəti qaydalar və bu Qayda *Agentliyin*, habelə Azərbaycan Respublikasının ərazisində olan beynəlxalq hava limanları istismarçılarının rəsmi internet informasiya ehtiyatlarında dərc edilir.

7.2. Bu Qayda Azərbaycan Respublikasının ərazisində olan beynəlxalq hava limanlarının istismarçıları tərəfindən Azərbaycan Respublikasına uçuşlar həyata keçirən bütün aviadaşıyıcılara göndərilir.

7.3. Azərbaycan Respublikasında olan beynəlxalq hava limanlarının istismarçıları aviadaşıyıcıları, aviadaşıyıcılar isə öz növbəsində sərnişinləri Müvəqqəti qaydaların və bu Qaydanın tələblərinə əsasən aviadaşıyıcılara və sərnişinlərə münasibətdə tətbiq edilə bilən tədbirlər barədə məlumatlandırırlar.

~~"Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"na 1 nömrəli Əlavə~~

~~Karantinə alınma haqqında~~

~~Akt~~

~~№~~ _____

"___" _____ 20__ il _____
_____ *~~(Aktın tərtib edildiyi yer)~~*

_____
~~(Sərhəd nəzarəti orqanının əməkdaşının hərbi rütbəsi, vəzifəsi, soyadı, adı, atasının adı)~~

_____
_____
_____
_____
_____
_____
_____barəsində

~~(barəsində karantinə alınma haqqında akt tərtib edilmiş Azərbaycan Respublikası vətəndaşının soyadı, adı, atasının adı, doğulduğu tarix, sərhədkeçmə sənədinin növü, seriya və nömrəsi, fərdi identifikasiya nömrəsi)~~

~~aşağıdakı məlumat və faktları müəyyən edərək bu aktı tərtib etdi:~~

~~Barəsində akt tərtib edilmiş şəxs _____ tarixində _____ aviadaşıyıcının _____ marşrutu üzrə _____ nömrəli reysi ilə Azərbaycan Respublikasının _____ beynəlxalq hava limanına gəlmişdir.~~

☐	~~Barəsində akt tərtib edilmiş şəxsin sərhədkeçmə–sənədi ilə birlikdə təqdim etdiyi COVID-19-a dair PCR testinin nəticəsini təsdiq edən sənəddə testin nəticəsinin pozitiv olması ilə bağlı qeyd aşkar olunmuşdur (bu halda həmin sənəd akta qoşma halında əlavə edilir).~~
☐	~~Barəsində akt tərtib edilmiş şəxs sərhədkeçmə sənədi ilə birlikdə COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənədi təqdim etməmişdir.~~

~~(Müvafiq hissə seçilməlidir)~~

~~Qeyd edilən faktın aşkar olunmasının Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVİD-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydaları"nın (bundan sonra – Müvəqqəti qaydalar) tələblərinin pozulması halı olduğu, barəsində akt tərtib~~

edilən şəxsə və hava daşımasını həyata keçirmiş aviadaşıyıcının nümayəndəsinə bildirildi.

Barəsində akt tərtib edilmiş şəxsə iki həftə müddətinə aviadaşıyıcının hesabına "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs (bundan sonra – TƏBİB) tərəfindən karantinə alınacağı məlumatı verildi.

Barəsində akt tərtib edilmiş şəxsin Müvəqqəti qaydaların tələblərinin pozulması ilə bağlı izahatı:

_____
_____
_____
_____
_____
_____
_____

(zəruri olduqda əlavə vərəqdə də təqdim edilə bilər)

Aktı tərtib edən şəxsin əlavə qeydləri:

_____
_____
_____
_____
_____
_____
_____

(Barəsində akt tərtib edilmiş şəxs və ya aviadaşıyıcının nümayəndəsi aktı imzalamaqdan imtina etdikdə, imtina və onun səbəbləri barədə bu hissədə qeyd edilir)

İmzalar:

1. _____
(Sərhəd nəzarəti orqanının əməkdaşının imzası, hərbi rütbəsi, vəzifəsi, soyadı, adı, atasının adı)

2. _____
(Barəsində akt tərtib edilmiş şəxsin imzası, soyadı, adı, atasının adı)

3. _____
(TƏBİB-in əməkdaşının imzası, vəzifəsi, soyadı, adı, atasının adı)

4. _____
(Aviadaşıyıcının nümayəndəsinin imzası, vəzifəsi, soyadı, adı, atasının adı)

Qoşma:

_____
_____
_____

(Akta əlavə olunan sənədlərin adı və vərəqlərinin sayı)

"Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"na 2 nömrəli Əlavə

Şəxsin ölkəyə buraxılmaması haqqında[14]

Akt

№ _____

"___" _____ 20__ il _____

(Aktın tərtib edildiyi yer)

_____

(Sərhəd nəzarəti orqanının əməkdaşının hərbi rütbəsi, vəzifəsi, soyadı, adı, atasının adı)

_____

_____

_____

_____

_____*barəsində*

(Barəsində ölkəyə buraxılmama aktı tərtib edilmiş əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin soyadı, adı (olduğu halda digər adları), atasının adı, doğulduğu tarix, sərhədkeçmə sənədinin növü, seriya və nömrəsi, fərdi identifikasiya nömrəsi)

aşağıdakı məlumat və faktları müəyyən edərək bu aktı tərtib etdi:

Barəsində akt tərtib edilmiş şəxs _____ tarixində _____ aviadaşıyıcının _____marşrutu üzrə _____ nömrəli reysi ilə Azərbaycan Respublikasının _____ beynəlxalq hava limanına gəlmişdir.

☐	*Barəsində akt tərtib edilmiş şəxs sərhədkeçmə sənədi ilə birlikdə Covid-19 pasportunu (COVID-19-a qarşı tam peyvənd olunmasını və ya COVID-19-dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənədi) təqdim etməmişdir*
☐	*Barəsində akt tərtib edilmiş şəxs sərhədkeçmə sənədi ilə birlikdə digər müvafiq təsdiqedici sənədləri təqdim etməmişdir*

(Müvafiq hissə(lər) seçilməlidir)

Qeyd edilən faktın aşkar olunmasının Müvəqqəti qaydaların tələblərinin pozulması halı olduğu, barəsində akt tərtib edilən şəxsə və hava daşımasını həyata keçirmiş aviadaşıyıcının nümayəndəsinə bildirildi.

Barəsində akt tərtib edilmiş şəxsə ölkə ərazisinə buraxılmayacağına və aviadaşıyıcının vəsaiti hesabına həmin reyslə gəldiyi təyinat məntəqəsinə geri qaytarılacağına dair məlumat

verildi. Barəsində akt tərtib edilmiş şəxsin Müvəqqəti qaydaların tələblərinin pozulması ilə bağlı izahatı:

_____
_____
_____
_____
_____

(Zəruri olduqda əlavə vərəqdə də təqdim edilə bilər)

Aktı tərtib edən şəxsin əlavə qeydləri:

_____
_____
_____
_____
_____

(Barəsində akt tərtib edilmiş şəxs və ya aviadaşıyıcının nümayəndəsi aktı imzalamaqdan imtina etdikdə, imtina və onun səbəbləri barədə bu hissədə qeyd edilir)

İmzalar:

_____

(Sərhəd nəzarəti orqanının əməkdaşının imzası, hərbi rütbəsi, vəzifəsi, soyadı, adı, atasının adı)

_____

(Barəsində akt tərtib edilmiş şəxsin imzası, soyadı, adı (olduğu halda digər adları),atasının adı)

_____

(Aviadaşıyıcının nümayəndəsinin imzası, vəzifəsi, soyadı, adı,atasının adı)

Qoşma:

_____
_____

(Akta əlavə olunan sənədlərin adı və vərəqlərinin sayı)

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)**
2. 23 sentyabr 2022-ci il tarixli **KQ-12/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202209231222, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 29 sentyabr 2022-ci il)**
3. 25 aprel 2025-ci il tarixli **3-27/3-7-4/2025** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202504257374, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 may 2025-ci il)**

QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 23 sentyabr 2022-ci il tarixli **KQ-12/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202209231222, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 29 sentyabr 2022-ci il)** ilə preambulada "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**" sözləri "**Rəqəmsal İnkişaf və Nəqliyyat**" sözləri ilə əvəz edilmişdir.

[2] 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 2.2.1-ci yarımbənd üzrə 1-ci abzasdan "**və uçuşdan əvvəl 72 (yetmiş iki) saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənədin**" sözləri çıxarılmışdır.

[3] 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 2.2.1-ci yarımbənd üzrə 2-ci abzasdan "**sənəd və uçuşdan əvvəl 72 (yetmiş iki) saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən**" sözləri çıxarılmışdır.

[4] 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 2.2.1-ci yarımbənd üzrə 3-cü abzas ləğv edilmişdir.

[5] 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 2.2.2-ci yarımbəndində "**sənədlər və uçuşdan əvvəl 72 (yetmiş iki) saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənədin**" sözləri "**sənədlərin**" sözü ilə əvəz edilmişdir.

[6] 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 3-cü hissəsi və Qaydanın 1 nömrəli Əlavəsi ləğv edilmişdir.

[7] 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 4.1-ci bəndində "**COVID-19-a dair PCR testinin nəticəsini təsdiq edən sənəddə testin nəticəsinin pozitiv olması ilə bağlı qeyd aşkar olunduqda və ya PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd, eləcə də Müvəqqəti qaydaların 2.1.3.1-ci və 2.1.3.2-ci yarımbəndlərində qeyd edilən digər**" sözləri "**Müvəqqəti qaydaların 2.1.3.1-ci və 2.1.3.2-ci yarımbəndlərində qeyd edilən**" sözləri ilə əvəz edilmişdir.

[8] 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 5.2.1-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5.2.1. barəsində karantinə alınma haqqında və ya şəxsin ölkəyə buraxılmaması haqqında akt tərtib edilmiş müvafiq olaraq Azərbaycan Respublikasının vətəndaşının, əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin sərhədkeçmə sənədinin surəti;~~

[9] 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 5.2.2-ci yarımbəndindən "**tərtib edilmiş karantinə alınma haqqında və ya**" sözləri çıxarılmışdır.

[10] 25 aprel 2025-ci il tarixli **3-27/3-7-4/2025** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202504257374, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 may 2025-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 6.1-ci bəndində "**Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - Dövlət Agentliyi)**" sözləri "**Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs (bundan sonra – Agentlik)**" sözləri ilə əvəz edilmişdir.

[11] 25 aprel 2025-ci il tarixli **3-27/3-7-4/2025** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202504257374, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 may 2025-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 6.2-ci bəndin birinci cümləsində və 6.5-ci bəndində "**Dövlət Agentliyinin direktoru və ya direktorun vəzifələrini**" sözləri "**Agentliyin İdarə Heyətinin sədri və ya sədrin səlahiyyətlərini**" sözləri ilə əvəz edilmişdir.

[12] 25 aprel 2025-ci il tarixli **3-27/3-7-4/2025** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202504257374, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 may 2025-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 6.4-cü bəndin birinci və ikinci cümlələrində "**Dövlət Agentliyinin direktoruna və ya direktorun vəzifələrini**" sözləri "**Agentliyin İdarə Heyətinin sədrinə və ya sədrin səlahiyyətlərini**" sözləri ilə əvəz edilmişdir.

[13] 25 aprel 2025-ci il tarixli **3-27/3-7-4/2025** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202504257374, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 may 2025-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 6.8-ci və 7.1-ci bəndlərində ismin müvafiq hallarında "**Dövlət Agentliyi**" sözləri ismin müvafiq hallarında "**Agentlik**" sözü ilə əvəz edilmişdir.

[14] 17 may 2022-ci il tarixli **KQ-6/22** nömrəli Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202205170622, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 31 may 2022-ci il)** ilə "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nın 2 nömrəli Əlavəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

Şəxsin ölkəyə buraxılmaması haqqında

Akt

№ _____

"___" _____ 20__ il _____

(Aktın tərtib edildiyi yer)

_____

(Sərhəd nəzarəti orqanının əməkdaşının hərbi rütbəsi, vəzifəsi, soyadı, adı, atasının adı)

_____

barəsində

(Barəsində ölkəyə buraxılmama aktı tərtib edilmiş əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin soyadı, adı (olduğu halda digər adları), atasının adı, doğulduğu tarix, sərhədkeçmə sənədinin növü, seriya və nömrəsi, fərdi identifikasiya nömrəsi)

aşağıdakı məlumat və faktları müəyyən edərək bu aktı tərtib etdi:

Barəsində akt tərtib edilmiş şəxs _____ tarixində _____ aviadaşıyıcının _____marşrutu üzrə _____ nömrəli reysi ilə Azərbaycan Respublikasının _____ beynəlxalq hava limanına gəlmişdir.

☐	Barəsində akt tərtib edilmiş şəxsin sərhədkeçmə sənədi ilə birlikdə təqdim etdiyi COVID-19 a dair PCR testinin nəticəsini təsdiq edən sənəddə testin nəticəsinin pozitiv olması ilə bağlı qeyd aşkar olunmuşdur (bu halda həmin sənəd akta qoşma halında əlavə edilir).
☐	Barəsində akt tərtib edilmiş şəxs sərhədkeçmə sənədi ilə birlikdə COVID-19 a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd təqdim etməmişdir.
☐	Barəsində akt tərtib edilmiş şəxs sərhədkeçmə sənədi ilə birlikdə Covid-19 pasportunu (COVID-19 a qarşı tam peyvənd olunmasını və ya COVID-19 dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənədi) təqdim etməmişdir
☐	Barəsində akt tərtib edilmiş şəxs sərhədkeçmə sənədi ilə birlikdə digər müvafiq təsdiqedici sənədləri təqdim etməmişdir

(Müvafiq hissə(lər) seçilməlidir)

Qeyd edilən faktın aşkar olunmasının Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVİD-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydaları"nın (bundan sonra – Müvəqqəti qaydalar) tələblərinin pozulması halı olduğu, barəsində akt tərtib edilən şəxsə və hava daşımasını həyata keçirmiş aviadaşıyıcının nümayəndəsinə bildirildi.

Barəsində akt tərtib edilmiş şəxsə ölkə ərazisinə buraxılmayacağına və aviadaşıyıcının vəsaiti hesabına həmin reyslə gəldiyi təyinat məntəqəsinə geri qaytarılacağına dair məlumat verildi. Barəsində akt tərtib edilmiş şəxsin Müvəqqəti qaydaların tələblərinin pozulması ilə bağlı izahatı:

_____

(Zəruri olduqda əlavə vərəqdə də təqdim edilə bilər)